UOT 94

# MÜHARİBƏ İLLƏRİNDƏ SOVETLƏR İTTİFAQINDA YAŞAYAN MİLLƏTLƏRİN VƏ XALQLARIN DEPORTASIYASI: ANTİSOVET ƏHVALİ-RUHİYYƏNİN GÜCLƏNMƏSİ

***Mais İsrail oğlu Əmrahov***
***Eldəniz Əliş oğlu Məmmədov***
***Azərbaycan Dövlət Pedaqoji Universiteti***
***emrahov48@mail.ru***

**Açar sözlər:** *Müharibə, Sovet İttifaqı, millətlər və xalqlar, deportasiya, antisovet əhvali-ruhiyyə*

*Məqalə indiyədək tarixşünaslıqda az araşdırılan mövzuya-müharibə illərində millətlərin və xalqların qeyri-qanuni depotasiyasına həsr edilmişdir. Məqalədə köçürülmə səbəbi kimi qeyd edilənlər təhlil olunaraq belə qənaətə gəlinir ki, deportasiya üçün bəhanə gətirilən «səbəblər» xalqları və millətləri öz dədə-baba yurdlarından köçürmək üçün əsas vermirdi. Bu cür cəzalandırmaya mülki əhali, həmçinin bütövlükdə xalqlar məruz qalmış, bu səbəbdən də, müharibə dövründə açıq və gizli formada mövcud rejimə qarşı çıxışlar başlamışdır.*

*Müəllif qeyd edir ki, xalqların deportasiyası insan hüquqlarına, qüvvədə olan SSRİ Konstitusiyasına zidd idi. Xüsusilə muxtar respublikaların və vilayətlərin ləğvi bu işin "zirvəsi" olub xalqlara tətbiq edilən ədalətsiz güc tədbirləri idi. Nəticədə əsassız deportasiyalar, türkdilli xalqlara münasibətdə ikili yanaşmalar xalqların və millətlərin SSRİ adlı dövlətə inamını azaltdı, XX əsrin sonlarında SSRİ-nin dağılması və müstəqil dövlətlərin yaranması ilə nəticələndi.*

## ДЕПОРТАЦИЯ НАРОДОВ И НАЦИЙ, ПРОЖИВАЮЩИХ В СОВЕТСКОМ СОЮЗЕ В ГОДЫ ВОЙНЫИ УСИЛЕНИЕ АНТИСОВЕТСКОГО НАСТРОЕНИЯ

***Маис Амрахов***
***Эльданиз Мамедов***

**Ключевые слова:** *война, Советский Союз, нации и народы, депортация, антисоветское настроение*

*Настоящая статья посвящена незаконной депортации народов и наций в годы войны, то есть той теме, что до сих пор не исследована в историографии. В статье после анализа тех нюансов, что указаны причинами выселения, сформировано некое заключение, согласно чему «причины», указанные как предлог для депортации, не служили основанием для выселения народов и наций из своих исконных земель. Именно гражданское население, в том числе, целые народы подергались такому роду наказанию, отчего, в годы войны начались открытые и тайные выступления против существующего режима.*

*Автор отмечает, что депортация народов противоречила правам человека, и действующей Конституции СССР. В особенности, упразднение автономных республик и областей стали "вершиной" этой политики, что являлись самыми несправедливыми силовыми мерами, применяемыми против народов. В итоге необоснованные депортации, двойственный подход к тюркоязычным народам скосило веру народов и наций в некое государство под названием СССР, и в конце XX века привело к развалу СССР и к возникновению независимых государств.*

## DEPORTATION OF NATIONS AND POPULATION LIVING IN SOVIET UNION DURING WAR YEARS AND STRENGHTENING OF ANTISOVIET MOOD

***Mais Amrahov***
***Eldaniz Mammadov***

**Key words:** *war, Soviet Union, nations and population, deportation, antisoviet mood*

*Article was devoted to the topic less studied in the historical science up to date – illegal deportation of nations and population in war years. By analyzing the mentioned information as a reason of deportation in the article, concluded that, "reasons" brought to an excuse for deportation did not give basis for deportation of nations and population from their native lands. Civil people, as well as in whole nations were subjected to such penalty, and due to this, protests against regime both in open and confidential form were commenced during war period.*

*Author hereby indicates that, deportation of nations were contrary with human rights and valid USSR Constitution. Especially, liquidation of autonomic republics and provices was unjustified force measures applied to nations which is considered as a "top" of the matter. Consequently,*

*ungrounded deportations, dual approaches in relation with Turkish speaking nations reduced the belief of nations and population to the state called USSR, and caused the destruction of USSR and formation of independent states in the end of XX century.*

**Giriş.** Müharibə illərinin ağrılı-acılı hadisələrindən biri SSRİ-də yaşayan xalqların, xüsusilə türkdilli xalqların deportasiyasıdır. Müharibə dövründə və müharibədən sonra deportasiya ilə əlaqədar sənədlərin «tamamilə məxfi» qrif ilə saxlanılması problemin araşdırılmasına imkan verməsə də, arxiv materiallarının təhlili göstərir ki, SSRİ-də həyata keçirilən repressiyaya baxmayaraq açıq və gizli formada mövcud rejimə qarşı çıxışlar olmuşdur. Bu cür proses müharibənin gedişində də davam etmişdir.

Müharibə dövründə «Qulaq asmayanlara, etibarsız hesab edilənlərə», hətta ayrı-ayrı xalqlara «cəza» tətbiq edilməsi DMK-nin, SSRİ Ali Soveti Rəyasət Heyətinin, ÜİK (b) P MK-nin qərarı, XKS, yaxud digər dövlət orqanının göstərişi ilə həyata keçirilirdi. Təəccüblü odur ki, bu cür qərar, göstəriş, yaxud sərəncam əhali öz yerlərindən çıxarıldıqdan sonra elan edilir və həyata keçirilən deportasiya üçün etibarsızlıq, banda formalaşdırılmasında iştirak, rejimə qarşı çıxış və s. kimi kompleks səbəblərlə əsaslandırılırdı.

1941-1945-ci illər müharibəsi ərəfəsində artıq RSFSR-in Şərq rayonlarına, Qazaxıstana və Orta Asiya respublikalarına 35 min polyak, 10 mindən çox alman, 172 min korey, 6 min İran vətəndaşı köçürülmüşdür [6, 2-ci kitab, s.307]. Ümumilikdə, köçürülənlərin sayı 200 min nəfərdən çox idi.

Almaniyanın SSRİ-yə basqınından sonra ölkənin iqtisadi vəziyyətində yaranan çətinliklər, arxa cəbhədə şəraitin ağırlaşması, düşmən elementlərin rejim əleyhinə çıxışlarının artması və digər məsələlər xalqların deportasiyası üçün imkan yaratdı.

Deportasiya olunan xalqlar öz mülkündən məhrum edildi. Onların yeni iqlimə adaptasiyası, işlə təmin edilməsi, təhsil almaları böyük problemlər doğurdu. Ərzaq qıtlığı, tibbi xidmətin olmaması, sanitar gigiyenik normalara əməl edilməməsi məskunlar arasında xəstəliyin yaranması və yüksək ölüm halları ilə müşayət olundu.

**Deportasiyanın başlanması.** 1939-cu ilin əvvəlinə olan məlumata görə SSRİ-də 1.427.222 alman yaşayırdı **[3, s.309].** Faşist Almaniyasının SSRİ-yə hücumunu ölkənin digər xalqları kimi, burada yaşayan almanların da hiddətlə qarşılamasına baxmayraq, deportasiyaya ilk məruz qalan onlar oldu. 1941-ci ilin iyununda L.Beriya və V.Molotovun Volqaboyuna səfərindən sonra alman mənşəli əhalinin köçürülməsi barədə SSRİ XKS və ÜİK (b) P MK müvafiq qərarı qəbul etdi. 26 avqust 1941-ci ildə SSRİ XKS və ÜİK(b)P MK-nın 2056-933№-li «Volqaboyu, Saratov və Stalinqrad vilayətində yaşayan almanların

Respublikadan köçürülməsi haqqında" qərarı və 1941-ci il avqust ayının 28-də SSRİ Ali Soveti Rəyasət Heyətinin 21-160 №-li fərmanı ilə proses qanuniləşdirildi [4, s.376] və Volqaboyu, Tambov, Yaroslav və Voronej vilayətlərindən minlərlə alman uzaq yaşayış yerlərinə deportasiya edildi [7, s.40]. 1941-ci ilin sentyabr-noyabr aylarında 441.713 nəfər Alma-Ata, Akmola, Aktuba, Şərqi Qazaxıstan, Cambul, Qaraqanda, Qızıl-Ordu, Kustanay, Şimali Qazaxıstan, Semipalatinsk, Cənubi Qazaxıstan vilayətinə köçürüldü. Bütövlükdə müharibə illərində 92,7 min nəfəri Qazaxıstana deportasiya edildi [8, s.105]. Köçürülmələr nəticəsində 400.000-ə yaxın adam həyatını itirdi [4, s.6].

Almanların deportasiya prosesi müharibə dövründə, hətta ağır döyüşlərin getdiyi dövrdə də davam etdi.

1943-cü ildə Stavropol diyarında və *Karaçay Muxtar Vilayətində* vəziyyət gərginləşdi. SSRİ Ali Soveti Rəyasət Heyətinin 12 oktyabr 1942-ci il və SSRİ XKS-nin 14 oktyabr 1942-ci il tarixli qərarına əsasən *karaçaylılar* Qazaxıstan və Qırğızıstan SSR - ə köçürüldü [2, s.43].

Karaçaylılardan sonra kalmıklar növbəti hədəf oldu. SSRİ Ali Soveti Rəyasət Heyətinin 27 dekabr 1943-cü il tarixli fərmanı və SSRİ XKS- nin 28 dekabr 1943-cü il tarixli qərarı ilə *Kalmıkiya Muxtar Vilayəti ləğv* edildi, kalmıklar Altay və Krasnoyarski diyarlarına, Omsk və Novosibirski vilayətlərinə sürgün edildilər [2, c.44].

Kalmıklarda olduğu kimi, 1944-cü il yanvarın 31-də DMK çeçenlərin və inquşların Kazaxıstan və Qırğızıstan SSR - ə deportasiyası haqqında qərar çıxardı. SSR Ali Soveti Rəyasət Heyətinin 7 mart 1944-cü il tarixli fərmanı ilə Çeçen-İnquş MSSR ləğv edildi [2, c.46].

Şimali Qafqazdan köçürülən xalqların içərisində balkarlar da vardı.

1944-cü il aprel ayının 13-də SSRİ XDİK və DTK "Krım Muxtar SSR ərazisinin antisovet elementlərdən təmizlənməsi tədbirləri haqqında" birgə qərar qəbul etdi. 1944-cü ilin mayına kimi 191.111 nəfər tatar köçürüldü [5, s.17].

SSRİ Xalq Daxili İşlər Komissarlığının Xüsusi Köçürülənlər Şöbəsinin 1946-cı ilin oktyabrına hazırladığı ümumi arayışda göstərilir ki, «xüsusi köçürülənlər düşərgəsində ümumilikdə 2.463.940 nəfər vardır. Onlardan 655.674 nəfəri kişi, 829.940 nəfəri qadın, 979.182 nəfəri 16 yaşına qədər olanlardır. Köçürülənlər Qazaxıstan SSR, Özbəkistan SSR-də, Kemerova vilayətində, Qırğızıstan SSR-də, Molotov, Sverdlov, Krasnoyarsk, Altay, Novosibirsk, Tomsk, Tümen, Çelyabinsk, Omsk vilayətlərində yerləşdirilmişdir [9].

**Antisovet əhvali-rühiyyənin güclənməsi**. Deportasiyalar millətlərin gözü qarşısında baş verir və əhalinin ümumi narazılığına səbəb olurdu. Yaranmış narazılıqlardan istifadə edən düşmən elementlər müəssisə və təşkilatlarda sovet hökuməti əleyhinə təşviqatı genişləndirir, antisovet mülahizələrin artmasına nail olurdular.

«Kirovneft» trestinin mənzil-tikinti kontorunun kəsicisi, 1900-cü il təvəllüdlü, ÜİK(b)P üzvü *İsmayılov Cəfər Abdulla oğlı* demişdir: «…Sovet hökuməti əvvəlcə kazakları sürgün etdi, sonra osetin və ləzgiləri sürgün etməyə başladı. Bildirdilər ki, onlar etibarsızdır, sovet hökumətini satırlar. Kazaklar və dağlılar sovet hökumətinə qarşı deyildi, məlum olmayan səbəbdən sovet hökuməti onlara etibar etmirdi. Görünür, onların sovet hökumətinə qarşı üsyana qalxmasının də səbəbi etibarsızlıq olmuşdur. İndi buynuz bizə tərəf – "keçmiş İran satqınları" na çevrilib» [1, v.355].

«Əzizbəyovneft» trestinin 4-cü trestinin mədən ustası, 1901-ci il təvəllüdlü ÜİK(b)P üzvü *Ələkbərov Əli Abbas oğlu* bildirmişdi ki, "Tezliklə müharibə qurtaracaq, soruşacaqlar ki, xalqı niyə qırdınız (məhv etdiniz). Çünki o vaxt bizim silahımız yox idi, kərpiclə düşməni saxlamazlar. Yaxışı olardı ki, almanlar hamını keçmiş illərə götürsünlər. Mən özümü axmaq hesab edirəm ki, sovet pasportu aldım, əgər bilsəydim ki, iş belə pis olacaq, İrana gedərdim. Hitler bütün kommunistləri məhv edəcək" [1, v.356].

«Krasin» adına DRES-nin xususi şöbəsinin rəisi, 1897-ci il təvəllüdlü *Parseqyan Armenaq Avetisoviç* sovet dövlətinin fəalyyətini kölgə altına alaraq bildirmişdi ki, "Bizim hökumət müharibəyə hazırlaşmaq əvəzinə, dekadalara aludə oldu və nəticə göz qabağındadır. "Düşmənə öz ərazisində üç qat zərbə vuracağıq" deyə qışqırırlar, düşmən isə öz ərazimizdə bizi vurur. Yaxşı olardı ki, bizə kapitalist əhatəsi haqqında danışmaqdansa, ölkəni hücuma hazırlayaydılar" [1, v.356].

**Nəticə.** Yuxarıda köçürülmə səbəbi kimi qeyd edilənləri təhlil edərkən belə qənaətə gəlirik ki, bu "səbəblər" xalqları və millətləri öz dədə-baba yurdlarından köçürmək üçün əsas vermirdi. Deportasiya xalqlara tətbiq edilən ədalətsiz güc tədbirləri idi. Bu cür "cəzalandırmaya" mülki əhali, həmçinin bütövlükdə xalqlar məruz qalmışlar.

Sovet höküməti deportasiya ilə böyük bir ərazidə xalqları bir-birinə qarşı qoyur, repressiya edilmiş ərazilərdə itirilmiş işçi qüvvəsinin yerini doldurmağa çalışırdı. Sonralar məlum oldu ki, depotasiya nəticələrindən milli münaqişlərdə istifadə olundu.

Xalqların deportasiyası insan hüquqlarına, SSRİ Konstitusiyasına zidd idi. Xüsusilə muxtar respublikaların və vilayətlərin ləğvi bu işin "zirvəsi" oldu. Əslində köçürülmə "səbəbləri" kimi qeyd edilənlər xalqları və millətləri öz doğma yurdlarından köçürməyə əsas vermirdi. Bu səbəbdən də, istər köçürülən, istərsə də deportasiyadan canını qurtaran xalqlar bu hadisələri yaddan çıxarmadılar.

Deportasiya tarixin uzun müddət xalqdan gizlədilmiş qaranlıq səhifələrdir. Bu səhifəni təhlil etdikcə aydın olur ki, əsassız deportasiyalar, millətlərə münasibətdə ikili yanaşmalar xalqların və millətlərin SSRİ adlı dövlətə inamını azaltdı, vətənpərvərlik tərbiyəsinə ciddi ziyan vurdu, XX əsrin

sonlarında SSRİ-nin dağılmasına və müstəqil dövlətlərin yaranması ilə nəticələndi.

## ƏDƏBİYYAT

**Azərbaycan dilində**
1.ARPİİSSA, f.1, siy. 27, sax. vah. 160
2.Əmrahov M.İ., Əsədov N.N. İkinci Dünya müharibəsinin yekunları və dərsləri. Bakı: Mütərcim, 2006, 76 c., şək.

**Rus dilində**
3.Боффа Дж. История Советского государства. Кн.2. М.: Международное отношения, 1990, 627 с.
4.Бургарт Л.А. Немецкое население в восточном Казахстане в 1941-1956 гг. Усть-Каменогорск: ТОО «Алтай-Вита», 2001, 376 с.
5.Бугай Н.Ф. Депортация народов Крыма: Документы. Факты. Комментарии. М.: ИНСАН, 2002, 238 с.
6. Война и общество. 1941-1945 в двух книгах. Отв. ред. Г. Н. Севостьянов. Инс-т российской истории. М.: Наука 2004, кн.1,2004, 480 с.; кн. 2, 2004, 411 с.
7.Иосиф Сталин – Лаврентию Берии: «Их надо депортироват…». Документы, факты, комментарии/составление, послесловие. М.: Дружба народов,1992, 288 с.: ил.
8.Начальный период Великой Отечественной войны и депортация российских немцев: взгляды и оценки через 70 лет/Материалы 3-й международной научно-практической конференции. Саратов, 25-28 августа 2011 г. М.: МСНК-пресс, 2011, 918 с.: ил., табл.; 21 см.
9.Московские новости. 1990, № 41